# Bilgəlik və danəndəlik

*XXI əsrin aforizmləri*



Rahid Ulusel

**Doqquzuncu hissə**

İdrakın qəhrəmanlığıdır fəlsəfə.

* * *

Bilgə təkcə suala yox, sualı yaradan situasiyaya da cavab verir.

* * *

Müdrikliyə çatmayan qocalıq - yəhərlənmiş atını minib çapa bilməyən cəngavər.

* * *

Əzab yox, əzabkeşlik mütəfəkkiri yetişdirir.

* * *

Dahilik - Özünün və Kainatın məqsədləri birliyində Yenini yaratmaq qüdrəti.

* * *

Hələ ölməyibsə, o demək deyil ki, yaşayır.

* * *

Cibindəki pul əyindəki paltarı daha şıq göstərir.

* * *

Səfehlik iki cür olur: ağıldan imtina edənlər, ağılın imtina etdikləri.

* * *

Mənasız adamların ölümü boşluğa zərbədir.

* * *

Yerini bilməyən nöqtə vergülə çevrilir.

* * *

Ən real fokusçu Ölümdür: tək gəlir, cüt qayıdır.

* * *

Reputasiyanızı tükəndirdiyiniz dar gün üçün xərcləməyə nəyinizi saxlayıbsınız?!

* * *

Yarımçıq adamlar bir-birini tamamlamağı da bacarmırlar.

* * *

Səhvlərini səhvlərlə yuyan natəmiz qalır.

* * *

Yaşa dolub, şəxsiyyətə yox.

* * *

Bu dünyada hər şey məntiqlə baş verir. Hətta dəlilik də.

* * *

Fikrin kökündən çiçəyinə doğru gövdələnib budaqlanmaqla onun meyvəsini dərə bilərsən.

* * *

Münbitləşir torpaq - şumladıqca, lehmələşir palçıq - tapdadıqca.

* * *

Öz əsrinin içində olmasan, bütün tarixin çölündə qalacaqsan.

* * *

Ustad insanda onun özünün axtarmadıqlarını tapır.

* * *

Hücrəsində mütəfəkkir: divarın həm içərisi, həm dışarısı işıqlanır.

* * *

Bilmədiklərini öyrənməkdən də gərəklidir - bildiklərini arıtmaq.

* * *

İnsanı düşünənlər və insanı düşündürənlər əl-ələ verəndə ikiqat güclənirlər.

* * *

Dil məntiqinin immunitetini tənqid möhkəmləndirir.

* * *

Polemikasız dialoq polemik monoloqun yanında lal.

* * *

Çəpgözlük hələ çarpazfikirlilik demək deyil.

* * *

Subyektiv olmamaq üçün - gərək heç adam olmayasan.

* * *

Filosof problemlə yox, dünya ilə məşğul olur.

* * *

Yaradılmayan çağ qopur tarixdən.

* * *

Çarıq çəkmə olmaq üçün uzun bir yol gedib.

* * *

Döyənək naturalar dəyənəyə yerikləyir.

* * *

Qovursan, qaçıram. Axır, səni tuturam.

* * *

Yumağın açılıb qurtarması - onun yox olması deyil.

* * *

"Həyat davam edir": axı, hansı tərəfə?!

* * *

Gözə soxulanı göz görmür.

* * *

Artmırsansa, deməli, tükənirsən.

* * *

Şair xalqın gələcəyi varmı?!

* * *

Təbiilikdən qaçanlar naturalizmə yuvarlanır.

* * *

Bir problem həmişə var: problemi həll etmək problemi.

* * *

Göz yumularkən də, kirpik oyaqdır.

* * *

Ucuz şərablar ucuz, bahalı şərablar bahalı keflilik yaradır.

* * *

Sərxoş səntirləyir - hörmətsizliyinə sarı.

* * *

Kəlin gönü qalındır, lakin bu o demək deyil ki, onu döyəsən.

* * *

Ana-Yerin tərs əkizləri - filantrop və mizantrop.

* * *

Bəzən olur - qəpiyə güllə atanlar çörəyə təpik atır.

* * *

Sübhün gözəlliyini banlamayan quşlar xoruzlardan daha yaxşı duyur.

* * *

Əyləncələr - həyatın zınqırovları.

* * *

Şeytana min, Mələyə çatınca...

* * *

Bütün qatı realistlər axırda duru mistiklərə çevrilir.

* * *

Özgələri aldadanın özü ilə də doğru münasibətləri olmur.

* * *

Uşaq gözündə keçəl: Başı ayaqyalın kişi.

* * *

Motosikletin dırıltısı - yelbeyinliyin simvolu.

* * *

Yol qəzası - ətlə dəmirin zarafatı.

* * *

Özünə ilişib qabağa gedə bilməyən adamlar var...

* * *

Elə doğulanda kəfənə bələklənən - ağ yalan.

* * *

Ən qatı yalançılar guya izi belə azdırır: qızlarının adını "Həqiqət" qoyur.

* * *

At vicdanı - tut dünyanı.

* * *

Susmaq ayıb deyil, mumlamaq ayıbdır.

* * *

Doyunca ye, ölüncə yox.

* * *

Gəlinin yerini dar edən - yurdunu kor edər.

* * *

Cibdəki para ilə dizdəki yara bir-birindən utanmaz.

* * *

Qazıya çapılan - tazıya da qapılar.

* * *

Gecə-gündüz çal-çağır - axırı olur naxır.

* * *

Zarafat dostluğun qayçısı, düşmənliyin qalayçısıdır.

* * *

El elə yol verər, yel yelə yol verməz.

* * *

Hər tüstüləyən ocaq olmaz, hər üstə gələn qoçaq.

* * *

Daşla ağıllanan baş qaşından uzağa getməz.

* * *

Naşı hara, kaşı hara.

* * *

Yırtıq zənbildə pıtraq da qalmaz.

* * *

Özgələrə cücü, özümüzə qoçu.

* * *

Hansı söz yandırar səni - O da oyandırar səni.

* * *

Yalnız kötüksən - kökünü itirsən.

* * *

Körükçünün körüyündə kül közərər.

* * *

Əlimdə - qələm, könlümdə - aləm.